TƏSDİQ EDİLMİŞDİR
Azərbaycan Respublikası
Səhiyyə Nazirliyi
Farmakoloji və Farmakopeya
Ekspert Şurasının sədri

_____________E.M.Ağayev

“_18_”_Dekabr_ 2014-cü il

Dərman vasitəsinin istifadəsi üzrə təlimat (xəstələr üçün)

**MAQNE B6** daxilə qəbul üçün məhlul
MAGNE B6

**Tərkibi**
*Təsiredici maddə:* məhlulun 10 ml-də (1 ampulda) 186 mq maqnezium-laktat dihidrat, 936 mq maqnezium-pidolyat, 10 mq piridoksin-hidroxlorid (vitamin B6) vardır.1 ampulda maqneziumun ümumi miqdarı 100 mq (4,11 mol) təşkil edir
*Köməkçi maddələr:* natrium-bisulfit, natrium saxarinat, albalılı-karamelli aromatizator, təmizlənmiş su.

**Təsviri**
Şəffaf qəhvəyi rəngli, karamel ətirli maye.

**Farmakoterapevtik qrupu**
Vitamin-mineral kompleksi
**ATC kodu:** A12

**İstifadəsinə göstərişlər**
Bu dərman vasitəsinin tərkibində maqnezium vardır.
Aşağıdakı simptomlardan biri və ya bir neçəsi maqnezium çatışmazlılığının göstəricisidir:
- Mərkəzi sinir sistemində - əsəbilik, qıcıqlanma, təlaş hissi, keçici yorğunluq, yaddaşın və diqqətin toplanmasının aşağı düşməsi, yuxu pozğunluğu;
- Periferik sinir sistemində - üzün və əl-ayağın qıcolması, əzələ ağrıları, sancma hissi;
- Ürək-damar sistemində - ürək döyüntüsünün hiss edilməsi və/ və ya ürəyin fəaliyyətində qeyri-müntəzəmlik, kardialgiya;
-Visseral: saya əzələlərin spazmı, o cümlədən mədə-bağırsaq spazmları, uşaqlığın yüksək tonusu.
Maqnezium çatışmazlığı ilə əlaqədar fizioloju hallar: yüksək fiziki, emosional və /və ya zehni gərginlik; uşaqlarda sürətli boyatma dövrləri; hamiləlik.
Maqnezium şatışmazlığı ilə əlaqədar digər hallar: kombinəedilmiş oral kontraseptivlərin, sidikqovucuların qəbulu, tərkibində az maqnezium olan pəhrizlər.

Maqneziumun təyin olunması bu simptomları aradan qaldırmağa və maqnezium çatışmazlığını aradan qaldırmağa kömək edə bilər.
Əgər müalicədən 1 ay sonra heç bir irəliləyiş nəzərə çarpmazsa, həkimə müraciət etməniz məsləhət görülür.

**Əks göstərişlər**
- preparatın komponentlərdən hər hansı birinə qarşı yüksək həssaslıq (allergiya).
- ağır böyrək çatışmazlığı
Şübhəli hallar olarsa, məsləhət üçün həkimə və ya əczaçıya müraciət edin.
Eyni zamanda kalsium çatışmazlığı olarsa, maqnezium çatışmazlığı əlavə kalsiumun yeridilməsinə kimi aradan qaldırılmalıdır.

**Ehtiyat tədbirləri**
Dərman formasının tərkibində natrium bisulfit vardır ki, bu da allergik reaksiyanın baş verməsinə və ya güclənməsinə səbəb ola bilər.
Yüngül böyrək çatışmazlığı olarsa, hipermaqnezium (qanda maqneziumun səviyyəsinin həddən artıq yüksəlməsi) riskindən qaçmaq üçün ehtiyatlı olmaq lazımdır.

**Digər dərman vasitələri ilə qarşılıqlı təsiri**
Bəzi dərmanlarla, əsasən də tərkibində fosfat və kalsium duzları olarsa, qarşılıqlı təsir zamanı, xəbərdarlıq məqsədilə, siz daima öz həkiminizi qəbul etdiyiniz dərman preparatları haqqında məlumatlandırılmalısınız.

**Hamiləlik və laktasiya dövründə istifadəsi**
Verilən dərmanı, zərurət olarsa hamiləliyin istənilən vaxtı qəbul etmək olar.
Əgər müalicə zamanı, hamilə olduğunuzu aşkar etmisinizsə həkimlə məsləhətləşin ki, o müalicənin davam etdirilib etdirilməməsinə qərar versin.
Ümumi qaydalara əməl edərək, hamiləlik və laktasiya dövründə, siz daima hər hansı bir dərmanın qəbulundan əvvəl həkimin ya da əczaçının məsləhətini almalısınız.

**İstifadə qaydası və dozası**
Daxilə qəbul edilir (yemək zamanı).
Böyüklər üçün: gündə 3-4 ampulun möhtəviyyatı 2-3 dəfəyə qəbul edilir.
Bədən kütləsi 10 kq-dan çox olan uşaqlar üçün (1 yaş və yuxarı): gündə 1-4 ampulun möhtəviyyatı 2-3 dəfəyə qəbul edilir.
Ampulun möhtəviyyatı yarım stəkan suda həll edilir.
Minimal müalicə müddəti 1 aydır.

**Əlavə təsirləri**
Digər dərmanlar kimi bu preparat da bəzi adamlarda bu və ya digər səviyyədə xoşagəlməz hallar doğura bilər.
- diareya
-qarın ağrıları
-allergik reaksiyalar (həmçinin dəridə təzahürü)
Preparatın tərkibində natrium-bisulfit olduğu üçün allergik reaksiyalar, həmçinin tənəffüsün çətinləşməsinə gətirib çıxaran ümumi allergik reaksiyalar baş verə bilər.
Məsləhət üçün öz həkiminizə və ya əczaçıya müraciət edin.
Bu vərəqədə qeyd olunmayan digər xoşagəlməz hallar haqqında həkiminizə və əczaçıya məlumat verin.
Preparatın ləğvi zamanı əmələ gələ biləcək heç bir risk sindromu yoxdur.

**Doza həddinin aşılması**
Böyrəklərin normal fəaliyyəti zamanı maqnezium preparatında heç bir doza həddinin aşılması müşahidə edilmir. Lakin böyrək çatışmazlığı olarsa, maqneziumun doza həddinin aşılması daha da inkişaf edə bilər.
Bir və ya bir neçə dozanın qəbul edilməsi unudulduqda buraxılmış dozanı bərpa etmək üçün iki-qat doza qəbul etməyin.

**Buraxılış forması**
10 ml məhlul, ampullarda. 10 ampul içlik vərəqə ilə birgə karton qutuya qablaşdırılır.

**Saxlanma şəraiti**
25°-dən yuxarı olmayan temperaturda, qaranlıq və uşaqların əli çatmayan yerdə saxlamaq lazımdır.

**Yararlılıq müddəti**
3 il.
Yararlılıq müddəti bitdikdən sonra istifadə etmək olmaz.

**Aptekdən buraxılma şərti**
Reseptsiz buraxılır.

**İstehsalçı**
Sanofi Winthtrop Industrie, France
Istehsalçı ünvanı:
1-3, rue allee de la Neste
Zl d En Sigal
31770 Colomiers
France